Ədəbiyyat qəzeti



4 dekabr 2021-ci il

# Tahir TAİSOĞLU - 70



Hörmətli qələm dostumuz Tahir Taisoğlu!

Sizi - müasir Azərbaycan ədəbiyyatının tanınmış nümayəndəsini yaşınızın 70, ədəbi yaradıcılığınızın 50 illiyi münasibətilə təbrik edirik.

Sizin ilk şeirlərinizin çapı ömrünüzün çox ilkin, gənc çağlarına təsadüf edir. Hələ o illərdə heç kəsin təsəvvürünə gəlməzdi ki, 19 yaşında olan bir gəncin birdən-birə respublika ədəbi-bədii orqanlarında şeirləri çap oluna, ondan bir neçə ay sonra isə ilk şeirlər kitabı işıq üzü görə!

Bir neçə ildən sonra Azərbaycan Yazıçılar İttifaqının təqdimatı ilə siz Moskvaya -M.Qorki adına Ədəbiyyat İnstitutuna göndərilmisiniz. Elə o illərdən başlayaraq Moskva ədəbi mühitində tanınmağa başlamış, qəzet və jurnallarında isə Azərbaycan ədəbi və milli-mənəvi dəyərlərimizi bədii şəkildə özündə əks etdirən əsərlərinizlə çıxışlar etmisiniz. "Drujba Narodov", "Molodaya qvardiya", "Yunost", "Literaturnaya qazeta" kimi nüfuzlu ədəbi-bədii orqanlarda şeirləriniz dərc olunmuşdur. Bütün bu uğurların davamı kimi Moskvanın "Sovetskiy pisatel" nəşriyyatı "Əllərimin kölgəsində" "Molodaya qvardiya" nəşriyyatı isə "Tənək kolu" şeirlər kitablarınızı kütləvi tirajla nəşr etmişdir. Şeirləriniz şəxsi hiss və həyəcanı deyil, ölkə, xalq, bəşəri duyğu və düşüncələr süzgəcindən keçdiyi üçün rus, alman, ispan, polyak, ingilis, fransız dillərinə tərcümə olunub çap edilmişdir.

Sizin "Sulara nəfəs gəlib", "Çayları küləklər aparır", "Ulduzların atası", "Gələcəyi görən insan", "Yol ağardıram", "Üzən ada" adlı şeirlər kitablarınız poeziyaya daha ciddi münasibət bəslədiyinizi bir daha nümayiş etdirdi. Son illər nasir kimi də fəaliyyətiniz nəzərə çarpır, - "Azərbaycan" jurnalının builki 6, 7, 8-ci saylarında çap olunmuş "Asılqan buynuzu" adlı romanınız buna sübutdur.

Siz həm də siyasi elmlər üzrə fəlsəfə doktorusunuz. Həm publisist, həm də siyasi tədqiqatçı kimi elm sahəsində uğurla fəaliyyət göstərirsiniz. "Azərbaycan Respublikasında siyasi mətbuatın formalaşması və inkişafında Heydər Əliyevin rolu" və "Demokratiya - müasir Azərbaycan dövlətinin siyasi simasıdır" adlı elmi monoqrafiyalarınız nəşr olunmuşdur.

Məhz buna görə şeirlərinizdə poeziyanın ictimai siyasəti, fəlsəfəsi, fəlsəfənin isə poetik çalarları daha çox nəzərə çarpır. Siz Beynəlxalq Rəsul Rza Mükafatına layiq görülmüsünüz, respublikanın Əməkdar jurnalisti fəxri adını daşıyırsınız. Şeirlərinizə mahnılar bəstələyib.

Hörmətli Tahir Taisoğlu! Sizi bir daha ürəkdən təbrik edir, uzun və səmərəli ömür, yeni-yeni yaradıcılıq uğurları diləyirik.

**Azərbaycan Yazıçılar Birliyi**